www.525.az Facebook.com/525.az İnstagram.com/525ciqezet

# "Qaranquş"un xoş müjdələri







Yazın əvvəlləri idi. Bir gün Üzeyir Hacıbəylinin ev-muzeyinə bəstəkarın xalası nəvəsi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində Orta ixtisas musiqi məktəb-studiyasının müəllimi Nərminə xanım Əliverdizadə zəng etdi. O, şagirdi Zərrin Şükürün muzeydə çıxışı üçün muzey rəhbərliyindən icazə istəyirdi.

Müəyyənləşdirdiyimiz gün onlar muzeyə gəldilər. Biz kiçik Zərrinlə tanış olduq. Məlum oldu ki, o, 2009-cu ildə Bakı şəhərində anadan olub. Zərrin Şükür Bakı Musiqi Akademiyasının nəzdində orta ixtisas musiqi məktəbstudiyanın və Türk Dünyası Bakı Atatürk Liseyinin 7-ci sinfində təhsil alır. Müəllimi kiçik Zərrinin uğurlarından söhbət açdıqca doğrusu, bu yeniyetmə musiqiçinin bacarığına heyran qaldıq. Öyrəndik ki, Zərrin 2016-cı ildə gənc klassik musiqi ifaçılarının İslam Dünyası V Beynəlxalq müsabiqəsində ən kiçik iştirakçı diplomu, 2017-ci ildə Bakıda "Üzeyir Hacıbəylinin milli lad sistemi gənc musiqiçilərin tədris repertuarında" adlı II Respublika festivalında diplom ilə təltif edilib.

Bunlardan başqa, Zərrin yenə 2017-ci ildə Bakıda keçirilən "World Harmony" klassik və folklor musiqisi üzrə I Beynəlxalq Müsabiqədə laureat olub.

İstedadlı musiqiçinin uğurları bununla bitmir. O, 2018-ci ildə Türkiyənin İstanbul şəhərində keçirilən Uluslararası Musiqi Festivalının fortepiano üzrə yarışmasında II dərəcəli laureat adına layiq görülüb. Zərrin, həmçinin, 2019-cu ildə Azərbaycan Təhsil Nazirliyinin dəstəyi və Bakı Media Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Simurq" musiqi festivalı müsabiqəsinin I dərəcəli laureatı diplomu ilə təltif edilib.

Zərrin Şükürün öz müəllimi Nərminə Əliverdizadə ilə birlikdə milli ladda bir işləməsi və iki bəstəsi 2017-ci ildə Moskvanın Elmi Nəşrlər jurnalında dərc edilib.

Nərminə müəllimənin ən istedadlı şagirdlərindən olan Zərrin pianoçu kimi bir çox xarici ölkələrin professor və müəllimlərindən mütəmadi olaraq ustad dərsləri alıb və hal-hazırda da almaqda davam edir.

Muzeyimizdə keçirilən tədbirdə Nərminə xanım Əliverdizadə öz şagirdi ilə qürur duyduğunu və onun gələcəkdə daha böyük uğurlara imza atacağına inandığını söylədi.

Sonra isə gənc Zərrin royal arxasına keçərək öz bəstələrindən nümunələr səsləndirdi. O, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının yaranması və onun premyerası haqqında ingilis dilində çıxış etdi. Bu çıxış əsasında videoçarx hazırlandı. Videoçarxın hazırlanmasında məqsəd Üzeyir Hacıbəyli irsini xarici dinləyicilərə daha çox tanıtdırmaq idi. Zərrin öz çıxışında bu təbliğat işində kiçik də olsa əməyi olduğundan qürur duyduğunu vurğuladı.

Məlum oldu ki, muzeydə çəkilmiş videoçarx 18 sentyabr - Milli Musiqi Günündə gənc pianoçunun öz "Ztempo" adlı yutub kanalında yayımlanacaq.

Çıxışından sonra bu istedadlı şagird öz müəllimi Nərminə xanım Əliverdizadəyə bütün uğurlarına görə dərin təşəkkürünü bildirdi və müəlliminin onun üçün çəkdiyi zəhməti heç zaman itirməyəcəyinə söz verdi.

Tədbirin sonunda Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru, Xalq artisti, bəstəkar Sərdar Fərəcov qonaqlara tədbirdə iştirak etdiklərinə görə təşəkkürünü bildirdi. O, belə istedadlı, zəhmətsevər azərbaycanlı gənclərin daha da çox olmasını arzuladı. Sonda iştirakçılar Üzeyir bəyin muzeydəki büstünün önünə gül dəstələri düzdülər və xatirə foto-şəkilləri çəkdirdilər.

Bu günlərdə isə 100-dən artıq yaşı olan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının böyük zalında Zərrin Şükürün müəllifi olduğu "Qaranquş" adlı fortepiano pyesləri albomunun "Mədəniyyətin Təbliği və Sosial Təşəbbüslər İctimai Birliyi"nin informasiya dəstəyi ilə təqdimat-konserti keçirildi. Kiçik Zərrin bu fortepiano pyesləri albomunu Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100, Orta ixtisas musiqi məktəb-studiyasının 40 illik yubileyinə ithaf edib. Zərrin, həmçinin, Bakı Musiqi Akademiyasının dosenti Arzu Məmmədovadan bəstəkarlıq dərsləri alır və "Qaranquş" onun albom şəklində ilk işidir. Bu, məktəb-studiyanın fəaliyyəti dövründə ilk dəfə rast gəlinən əlamətdar hadisədir. Belə ki, Zərrin 12 yaşında müəllif hüququ almış, öz əsərini geniş dinləyici auditoriyasına təqdim edən və müəllif konserti keçirən ilk şagirddir. Albomda yer alan bütün pyeslər "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası qanununa uyğun olaraq qeydiyyatdan keçmiş və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi tərəfindən müstəsna hal kimi müəlliflik hüquqlarının sahibi Zərrin Şükür qeyd edilib.

Yeri gəlmişkən qeyd edək ki, Zərrinin gənc bəstəkar kimi ilk uğuru 18 oktyabr 2021-ci il tarixində Nyu-Yorkda fəaliyyət göstərən "Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyəti"nin təşkilatçılığı, Amerika-Azərbaycan Musiqi Fondunun iştirakı, Diasporla iş üzrə Dövlət Komitəsi, Mədəniyyət Nazirliyi və Azərbaycanın ABŞ-dakı Səfirliyinin dəstəyi ilə keçirilən "Hacıbəyli Beynəlxalq Bəstəkarlıq Müsabiqəsi"ndə olmuşdur. Bu müsabiqədə o, "Ən gənc bəstəkar" nominasiyasına layiq görülüb.

Bakı Musiqi Akademiyasının böyük zalında keçirilən Təqdimat-konsertdə "Qaranquş" albomuna daxil olan əsərlər müəllifin özü ilə yanaşı, beynəlxalq və respublika müsabiqələri laureatları, Orta İxtisas musiqi məktəb-studiyasının şagirdləri və professional pianoçu-pedaqoqlar - beynəlxalq müsabiqələr laureatları Fəqan Həsənli və Nuranə Zeynalova tərəfindən ifa edildi.

Danılmaz faktdır ki, xüsusi istedada malik olan Zərrinin kiçik yaşlarından böyük uğurlar qazanmasının səbəblərindən biri də professor Tərlan Seyidovun rəhbərliyi ilə Məktəb-studiyanın peşəkar, nüfuzlu müəllimlərindən dərs almasıdır. Bu da Zərrinin fitri istedadını üzə çıxaran təhsil aldığı Məktəb-studiyanın müəllim kollektivinin tədris metodikasının beynəlxalq standartlara uyğun, innovativ şəkildə daha öndə olmasının bariz nümunəsidir.

Bu günlərdə aldığımız daha bir sevindirici xəbər Zərrin Şükürün İtaliyanın Roma şəhərində keçirilən "SONJA PAHOR" adına XIII Avropa fortepiano müsabiqəsində olduqca uğurlu iştirakıdır. Müsabiqənin təşkilat komitəsinin rəsmi açıqlamasında bildirilir ki, Zərrin Şükür öz kateqoriyasında ən yüksək bal (91/100) toplamışdır. Qeyd etməliyik ki, Zərrin nüfuzlu pianoçu-pedaqoqların münsif olduğu müsabiqədə iştirak edən ilk azərbaycanlı pianoçudur.

İncəsənətin mürəkkəb və keşməkeşli yollarında biz kiçik Zərrinə daha böyük uğurlar arzulayırıq.

**Gülnarə ƏLƏSGƏROVA**
**Üzeyir Hacıbəylinin ev-muzeyinin ekspozisiya və kütləvi işlər şöbəsinin müdiri**